# ŞƏFALI ƏLLƏRİN SAHİBİ



Cəlilabad rayonunda sakinlərin hörmət bəslədiyi tanınmış insanlardan biri də rayon ağ ciyər xəstəlikləri xəstəxanasının həkimi Möhtəmən Məmiyevdir. Mən onu yaxından tanıyıram. Bilirəm ki, hamı onun peşəsinə bağlılığını xüsusi qiymətləndirir. Səbəbi odur ki, bu gözəl insan çalışdığı sahədə həm öz başını, həm el-obanın başını ucaldır, insanların firavanlığını və səadətini hər şeydən üstün tutur. Onun həyat tarixçəsi çoxları üçün nümunədir. Ən çox sevdiyi, ürəyini verdiyi, bütün şüurlu həyatını həsr etdiyi bir əsas peşəsi var: həkim. “Həkim cəmiyyətdə əxlaq etalonudur” — bu sözlər sanki Möhtəmən həkimin ünvanına söylənmişdir. Ona görə də xoşbəxt bir insandır.

Möhtəmən Məmiyev 1948-ci ildə Cəlilabad rayonunun Üçtəpə kəndində anadan olmuşdur. 1966-cı ildə kənd məktəbini əla qiymətlərlə bitirmişdir. Özünün söylədiyinə görə, kamal attestatı alandan sonra o, peşə seçməkdə bir qədər çətinlik çəkirdi, çünki məktəbdə bütün fənləri sevə-sevə oxumuşdu, onlara mükəmməl yiyələnmişdi. Azərbaycan Tibb Universitetinin müalicə-profilaktika fakültəsinə daxil oldu, 1973-cü ildə ali təhsilini uğurla başa vurub doğma rayona təyinat aldı, elmi-tədqiqat institutunda internaturadan, daha sonra yeddi dəfə ixtisasartırma kurslarından keçib öz bilik və bacarığını daha da möhkəmləndirdi.

İndi Möhtəmən həkim 41 ildir ki, insanların cansağlığının keşiyindədir, onlara şəfa bəxş etməyi müqəddəs vəzifə hesab edir, ali dərəcəli fiziatrdır, inişil öz sahəsi üzrə attestasiyada ən yüksək bal toplayaraq sertifikat almışdır. Əməyi daim yüksək qiymətləndirilmiş, Səhiyyə Nazirliyinin və iki dəfə rayon icra hakimiyyətinin fəxri fərmanlarına layiq görülmüşdür.

Möhtəmən həkim həm də istedadlı şair qəlbinin sahibidir, ömrünün xeyli hissəsini bədii yaradıcılığa həsr etmiş, harada olursa-olsun qələmini yerə qoymamışdır. İki şeir kitabının müəllifidir.

Biz Möhtəmən həkimi Tibb işçiləri günü münasibətilə ürəkdən təbrik edir, ömrün şərəfli və çətin yollarında ona uğurlar diləyirik.

**Sabir MUSTAFAYEV,**
**“Respublika”.**